**Cəmil Həsənli**

# TƏBRİZ – 1946-CI İL:

## MİLLİ HÖKUMƏTİN ZƏFƏR VƏ FACİƏSİ

qanun nəşriyyatı

**Cəmil Həsənli. TƏBRİZ - 1946-CI İL: MİLLİ HÖKUMƏTİN ZƏFƏR VƏ FACİƏSİ**
Bakı, Qanun Nəşriyyatı, 2024, 600 səh. (16 səh. şəkil)

Ölçü: 145x210 mm
Cild: yumşaq
Çapa imzalandı: 19.11.2024

| | |
|---|---|
| Redaktor: | Kəmalə Səlim Müslümqızı |
| Korrektor: | Əyyar Tahir |
| Mətn dizaynı: | Sabina Aydın |
| Qapaq dizaynı: | Kənan Eynullayev |

Qanun Nəşriyyatı
İstanbul Copyright Awards-ın qalibi
Bakı, AZ 1102, Tbilisi pr., 76
Tel: (+994 12) 431–16–62; 431–38–18
Mobil: (+994 55) 212–42–37
e–mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

AB 022051 / İN 0660

© Cəmil Həsənli, 2024
© Qanun Nəşriyyatı, 2024

Cəmil Həsənli. Təbriz-1946-cı il: Milli Hökumətin Zəfər və Faciəsi. Bakı, Qanun Nəşriyyatı, 2024

Oxuculara təqdim edilən bu kitab London Universitetinin Tarix Araşdırmaları İnstitutunun baş elmi işçisi, professor Cəmil Həsənlinin 2023-cü ildə "Qanun Nəşriyyatı"nda nəşr olunmuş "Güney Azərbaycan: Tarixin yol ayrıcında (1939-1945)" monoqrafiyasının davamıdır. Kitabda Güney Azərbaycan Milli Hökumətinin 1946-cı ildə keçdiyi tarixi yol, milli-mənəvi sahədə həyata keçirdiyi reformalar, Tehranla Təbriz arasında yaranmış qarşıdurma, Təbrizlə Bakı arasında yaranmış çoxtərəfli əlaqələr, Milli Hökumətə münasibətdə Sovet-İran münasibətləri, Qərb ölkələri ilə SSRİ arasında soyuq müharibə ritorikasının başlanması və digər maraqlı məsələlər yer alıb.

Kitabın hazırlanmasında Azərbaycan, Rusiya, ABŞ, Böyük Britaniya və digər ölkələrin arxiv sənədlərindən, İran mətbuatının materiallarından və müxtəlif ölkələrdə nəşr edilmiş tarixi ədəbiyyatdan geniş istifadə edilib. Çoxsaylı materialların müqayisəli təhlili əsasında müəllif soyuq müharibə erasının Təbrizdən başlanmasının elmi konseptual mənzərəsini yaradıb.

Kitabda təqdim edilən dramatik hadisələr oxucunu öz cazibəsində saxlayır. Kitab humanitar sahədə təhsil alan tələbələr, bu istiqamətdə ixtisaslaşan akademik dairələr, qəlbində Güney nisgili yaşadan, yaxın dövr tariximizə maraq göstərən oxucular üçün nəzərdə tutulmuşdur.

## İçindəkilər

Giriş ..........................................................................................5
1. Təbrizdə yeni dövlət quruculuğunun başlanması ................19
2. 1946-cı ilin səksəkəli fevralı ..............................................95
3. Stalin və Qəvam əs-Səltənənin şahı devirmək planları .....126
4. 1946-cı ilin martı: Azərbaycan böhranı
beynəlxalq müzakirələrdə ...................................................172
5. Moskva seçim qarşısında: neft, yoxsa Azərbaycan ...........235
6. Sovet qoşunlarının İrandan çıxması və
Stalinin Pişəvəriyə məktubu .................................................293
7. Tehranla Təbriz arasında müqavilə və Əşrəf Pəhləvinin
Stalinlə görüşü .......................................................................365
8. Tudə partiyası ilə bağlı Əhməd Qəvamın "at gedişi" ........415
9. 1946-cı ilin ziddiyyətli payızı ............................................449
10. Qəvamın Azərbaycanı ram etmək cəhdləri ......................482
11. 1946-cı ilin dekabrı: Təbriz qan içində ............................516
Nəticə əvəzi. Pişəvərinin ölümü ətrafında müəmmalar .........551
Biblioqrafiya ............................................................................ 589

# GİRİŞ

1945-ci il dekabr ayının 12-də (Azər ayının 21-də) Təbrizdə bütün dünyanın diqqətini cəlb edən tarixi hadisə baş vermişdi. Məhz həmin gün Güney türklərinin iradəsini ifadə edən Milli Məclis açılmış, millətin arzu və istəklərinin təcəssümü kimi Milli Hökumət yaranmışdı. 21 Azər hərəkatı Güney Azərbaycanı İranın daxili məsələsi olmaqdan çıxararaq bir dünya məsələsinə çevirmiş, Güney türkləri növbəti dəfə tarixin səhnəsinə çıxmış, dekabr ayının sonlarına qədər Azərbaycanın tarixi ərazilərinin böyük bir hissəsi Milli Hökumətin nəzarətinə keçmişdi.

Lakin Təbrizdə milli dövlət quruculuğu işləri 1946-cı ildə başlamışdı. Həmin il Azərbaycan məsələsi dünya müzakirəsinə çıxmış, yeni yaranan Birləşmiş Millətlərin gündəliyinə daxil olmuş, Qərb-Şərq qarşıdurmasının mərkəzi məsələsinə çevrilmişdi. 1946-cı il Güney türklərinin tarixində islahatlar ili oldu. Dil, mədəniyyət, təhsil, sosial-iqtisadi sahələrdə həyata keçirilən müxtəlif islahatlar bütün milli-mənəvi həyatı dirçəltmişdi. Türk dilinin dövlət dili olması haqqında hökumətin qərarı xalqın öz ölkəsinə sahiblik hissini cilalamışdı. Müstəbid Rza şahın heykəlləri İranda ilk dəfə olaraq məhz 1946-cı ildə Təbrizdə uçurulmuş, onun yerində Sərdari-Milli Səttarxanın abidəsi ucaldılmışdı.

Milli hökumətin milliliyi nədə ifadə edilirdi? Millətin hər iki valideynini itirmiş körpələrinə sahib çıxmaqda, onlar üçün pərvəriş evləri açmaqda, ana dilində məktəblər yaratmaqda, Təbriz Universitetinin, türk dilində efirə gedən Təbriz radiosunun, Təbriz filarmoniyasının fəaliyyətə başlamasında, uzun illərin arzusu olan tor-

paq islahatı keçirməsində, indiyə qədər xatırlanan abadlıq işlərində təcəlla edirdi bu millilik. 21 Azərin gücü, mahiyyəti və məzmunu da bundan ibarət idi, Milli hökumətin indiyə qədər insanların yaddaşında qalmasının sirri də bunda idi.

Güney Azərbaycan Milli Hökumətinin yaranmasında və fəaliyyətində Sovetlərin rolu var idimi? Şübhəsiz ki, var idi. 1946-cı ilin dramatik hadisələri təsdiq edir ki, həmin vaxt Təbrizdə cərəyan edən hadisələr Sovet İttifaqının isti dənizlərə doğru genişlənmə strategiyası, Moskvanın neft maraqları üzərində qurulmuş siyasəti, Qərb üçün daha çox kommunizmin yayılması təhlükəsi, İran üçün ərazi bütövlüyü məsələsi, Bakı və Təbriz üçün yüz illik ayrılığın ortaq tale məqamı idi. Bir illik Təbriz epopeyasına məhz bu bucaqlardan yanaşılmalıdır.

Tarix üçün elə də böyük olmayan bir illik azadlıq missiyası Pişəvərinin adını simvola çevirmişdi. O, Güneyin milli-azadlıq və müstəqillik hərəkatının mərkəzi siması idi. Seyid Cəfər Pişəvəri böyük mübarizə yolu keçmiş, proseslərin içərisində formalaşmışdı, qələmin müqəddəs vəzifəsini millətə xidmətdə görən bir siyasi xadim, xalq adamı idi. O, Hacı Mirzə Əli Şəbüstəri, Salamulla Cavid, Məhəmməd Biriya, Zeynalabidin Qiyami, Sadıq Badeqan, Firudin İbrahimi, Cəfər Kavian, Mirzə Rəbi Kəbiri və digər silahdaşları, qəhrəman fədai dəstələri ilə tarixə örnək verdi, millətə xidmətin təmənnasız nümunəsini yaratdı. Əleyhinə çoxlu kitablar yazılsa da Pişəvərini diri saxlayan, millətin qəlbində, düşüncəsində yaşadan, milli mübarizənin simvoluna çevirən məhz budur. Bu özəlliyinə, milli-mənəvi dəyərlərinə görə 1946-cı ilin həm o taylı, həm də bu taylı Azərbaycanın ortaq tarixi olmasında idi. Sovet Azərbaycanı ziyalılarının, elm, ədəbiyyat və mədəniyyət xadimlərinin, siyasi işçilərin böyük bir dəstəsi 1945-1946-cı illərdə Güney Azərbaycanda vətənpərvərlik məktəbi keçdi. Sovet Azərbaycanı ziyalılarının gücü ilə "Vətən yolunda" qəzetinin, cəmi 18 nömrəsi nəşr olunan "Azərbaycan" jurnalının səhifələrində milli ideyanı və milli kimlik

məfkurəsini cilalayan maraqlı yazılar dərc edilirdi, Güneyin və Quzeyin tarixi və mədəniyyətini əks etdirən yazılar vahid Azərbaycan ideyası ilə hazırlanırdı. Süleyman Rüstəmin *"Diliмə dəymə"* şeirinə onlarla nəzirə yazılmışdı. Milli Hökumətin himnini Cahangir Cahangirov bəstələmişdi. Yeni açılan Təbriz Universitetinin müəllim kollektivinin yarıya qədəri Bakıdan ezam olunmuşdu. Azərbaycan geoloqları Mirəli Qaşqay, Əli Əmiraslanov, Səttar Süleymanov və digərləri Zəncan vilayətinin Qayqabaq mis mədənlərində geoloji kəşfiyyat işinə başlamışdılar. Mirzə İbrahimov 1944-1946-cı illərdə Təbrizdə ana dili ilə bağlı silsilə məqalələr yazmışdı. O, 1945-ci ildə Təbrizdə qələmə aldığı «Azərbaycan dili» məqaləsində yazırdı: "*Hər bir xalqın öz vətəni, adəti, rüsumu və əqidəsi olduğu kimi, öz dili də vardır. Bu dilə ana dili, doğma dil, vətən dili deyilir… Ana dili o dildir ki, onu bütün xalq bilir, bütün xalq o dildə danışır*". Təbrizdə fəaliyyət göstərən Sovet Azərbaycanı ziyalıları yaxşı bilirdilər ki, asılı xalqlarda milli ideyaya gedən yol milli dildən keçir. Bu, dünən olduğu kimi, bu gün də belədir.

1944-1946-cı illərdə Güney Azərbaycanın şəhərlərində fəaliyyət göstərən Sovet diplomatik idarələrinə əsasən Bakıdan göndərilmiş siyasi işçilər rəhbərlik edirdilər. Sovet ordusunun yerləşdiyi şəhərlərdə hərbi komendantlar da Sovet Azərbaycanı vətəndaşları idilər. Şübhəsiz ki, onlar İranda Sovet siyasətini icra edirdilər. Amma onların hazırladığı hesabatlarla, arayışlarla tanış olduqda orada milli istək və arzuların da əks olunduğunu duymaq olur. Siyasi, diplomatik işçilərdən, ziyalılardan əlavə, Təbrizdə onların fəaliyyətini əlaqələndirən "Bakı üçlüyü" də fəaliyyət göstərirdi. Bu üçlüyü Azərbaycan SSR Maarif naziri Mirzə İbrahimov, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin ideoloji məsələlər üzrə katibi Həsən Həsənov, Azərbaycan SSR Dövlət Təhlükəsizliyi nazirinin müavini general Ağasəlim Atakişiyev daxil idi. "Bakı üçlüyü" Təbrizdə 1944-1946-cı illərdə fəaliyyət göstərdi. Həmin müddətdə Güney Azərbaycanla bağlı Moskvadan,

xüsusi ilə Bakıdan gələn təlimatlar məhz bu üçlük tərəfindən icra edilirdi. Onlar Milli hökumətlə Sovet orqanları arasında əlaqələndirici funksiyasını yerinə yetirirdilər.

1946-cı ilin Təbriz hadisələri böyük gücləri hərəkətə gətirmişdi. Müharibə dövrünün müttəfiqləri məhz Təbrizdə qarşı-qarşıya dayanmışdılar. Soyuq müharibənin ilk səngərləri bilavasitə Güney Azərbaycandan keçirdi. Həmin vaxt "soyuq müharibə" ifadəsi hələ beynəlxalq münasibətlərə daxil olmamışdı. Lakin Güney Azərbaycan böhranı ilə bağlı diplomatik yazışmalarda "əsəblərin gərilməsi", "psixoloji təzyiq", "təbliğat hücumu", "iqtisadi cəhətdən diz çökdürmə", "qarşı tərəfin maliyyə həyatının dağıdılması" və s. ifadələrdən istifadə edilirdi. Bunlar hamısı sonralar "soyuq müharibə" kimi tanınan dövrün arsenalında olan terminlər, ifadələr idi. Məhz bu səbəbdən 1946-cı ilin Azərbaycan böhranı erkən soyuq müharibə erasının ilk epizodu idi.

1946-cı il Azərbaycan böhranının beynəlxalq aktyorları rəngarəng idi. Bura İosif Stalin və Vyaçeslav Molotov, Məhəmməd Rza şah və Qəvam əs-Səltənə, Harri Trümen və Ceyms Birns, Kliment Ettli və Antoni İden, regional rəhbərlərdən Mir Cəfər Bağırov, Seyid Cəfər Pişəvəri və digərləri daxil idi. Son dövrlərdə açıqlanan arxiv sənədləri Azərbaycan böhranına münasibətdə dünya gücləri arasında çox maraqlı, tarixi baxımdan sirli-soraqlı məqamları ortaya qoyur. Məsələn, 1946-cı ilin fevral-mart aylarında İranın Baş nazirinin Moskva səfəri zamanı Stalin və Qəvam əs-Səltənə şahın devrilməsi və İranın respublika elan edilməsi planını müzakirə edirdilər. Və bu plana görə respublikanın birinci prezidenti elə Əhməd Qəvam özü olmalı idi. Uzun müddət Qəvamın Moskva səfəri haqqında miflər dolaşırdı. Yeni açıqlanan və bu araşdırmada istifadə edilən arxiv sənədləri həmin miflərə son qoydu. Moskva danışıqları zamanı Stalin və Molotov tez-tez London və Vaşinqtonun İrana yönəlik siyasətinə toxunan Əhməd Qəvama çox açıq

şəkildə dedilər ki, "bizim üçün fərqi yoxdur ABŞ və Böyük Britaniya nə fikirləşir, biz onlardan qorxmuruq". Bu, artıq Azərbaycan böhranı fonunda soyuq müharibənin ilk açıq təzahürü idi. Lakin 1946-cı ilin mart ayında Dövlət Katibi Ceyms Birns başda olmaqla ABŞ Dövlət Departamentində Azərbaycan böhranının müzakirəsi və müvafiq qərarlar qəbul edilməsi Moskvanın geri çəkilməsi ilə nəticələndi. Şantaj və blef işlədi, Sovetlər Vaşinqtonun təzyiqi altında geri çəkildi. Bu, soyuq müharibə erasında Sovetlərin birinci məğlubiyyəti idi.

1946-cı ilin Azərbaycan böhranı üç istiqamətdə cərəyan edirdi: Azərbaycanın muxtariyyəti, Sovet qoşunlarının İrandan çıxması və neft məsələsi. Hadisələrin başlanğıcında Sovet İttifaqı həm Azərbaycanın muxtariyyəti, həm də İrandan neft imtiyazı almaqda qərarlı idi. Lakin Qərbin təzyiqləri fonunda Stalin Azərbaycan məsələsini perspektivsiz neft istəklərinə "qurban" verdi. Nəticədə hər ikisini itirdi, həm də uzun müddətə. Böyük güclərin hər biri ilə ayrı-ayrılıqda oyun oynayan və ilk baxışda hadisələrin "qalibi" kimi görünən Qəvam əs-Səltənə isə vəzifəsi ilə vidalaşmalı oldu. O, Azərbaycan böhranı fonunda hakimiyyətə gəlmişdi və Təbriz qan içində boğulandan sonra şah onu hakimiyyətdən uzaqlaşdırdı. Təbrizin fəthi onu çox gücləndirmişdi. Ölkədə şahın devrilməsi və respublika elan edilməsi haqqında şayiələr dolanırdı. Məhəmməd Rza şah Qəvama inanmırdı və ondan ehtiyat edirdi.

Qəvamın 1946-cı il 4 aprel sazişindən geri çəkilməsi və Sovetlərə neft verməkdən imtina etməsi ilə məsələ qurtarmadı. Neft alışqan bir maddə kimi İranda bir neçə hökumətin axırına çıxdı. 1951-ci ildə Məhəmməd Müsəddiq də İran neftinin milliləşdirilməsi fonunda hakimiyyətə gəldi və onun bu addımı tək İranı yox, bütün dünyanı şoka saldı. Azərbaycan böhranından sonra İran ikinci